

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 148 (23.310)

*9 avqust 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Kəngərli rayonunun Yurdçu kəndində qapalı suvarma şəbəkəsi istifadəyə verilib



Muxtar respublikada mütərəqqi suvarma şəbəkələrinin qurulması torpaq və su ehtiyatlarından səmərəli istifadəyə, eləcə də yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına səbəb olmuşdur. Son illər Babək, Culfa və Kəngərli rayonlarında 5 min hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi qurulmuşdur.

Avqustun 8-də Kəngərli rayonunun Yurdçu kəndində yeni qapalı suvarma şəbəkəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, qapalı suvarma şəbəkəsi 117 hektar sahədə qurulub. "Qıvraq-1" nasos stansiyası vasitəsilə su Arpaçay sol sahil kanalından Yurdçu kəndindəki hovuza vurulur və öz axını ilə əraziyə ötürülür. Sahəyə suyun verilməsi üçün 1400 metrlik ana xətt və 9700 metrlik paylayıcı boru xətti çəkilmişdir. Boru xətlərinin üzərində 2 siyirtmə, 100 suvarma hidrantı və üç tərəfə çıxışı olan dəmir-beton hovuzlar qoyulmuşdur.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Yurdçu kəndində 108 hektar pay torpağını və Qıvraq qəsəbəsində 9 hektar bələdiyyə torpağını əhatə edən qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirmiş, bu münasibətlə sakinləri təbrik edərək demişdir: Torpaqların əkilməsi hər bir ölkənin inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında vacib məsələlərdəndir. Muxtar respublikada da yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, onların su təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Çünki muxtar respublikanın 5,5 min kvadratkilometr ərazisinin cəmi 161 min hektarı əkinəyararlı torpaqlardır. Hazırda həmin torpaqların 62 min hektara yaxınında əkin aparılır ki, onun da 51 min hektarı suvarılan ərazilərdir.



Ali Məclisin Sədri demişdir: Muxtar respublikada mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin tərkib hissəsidir. Yurdçu kəndində qapalı suvarma şəbəkəsinin qurulması da torpaq mülkiyyətçilərinin pay torpaqlarından səmərəli istifadə etməsinə, məşğulluğun təmin olunmasına və bol məhsul istehsalına imkan verəcəkdir. "Kitabi-Dədə Qorqud" dastanında da yazılır ki, "Torpağı əkmirsənsə qorumağına, qorumursansa əkməyinə dəyməz". Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsini təmin etmişdir. Torpaqlarımız etibarlı şəkildə qorunur. Qarşıda duran digər vəzifə isə torpaqların əkilməsidir. Ona görə də hər il muxtar respublikada ardıcıl olaraq meliorasiya və irriqasiya tədbirləri həyata keçirilir, yeni suvarma şəbəkələri qurulur, torpaqların su təminatı yaxşılaşdırılır. Bu il Kəngərli rayonunda 180 hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi qurulub. Hazırda Şahbuz rayonunun Türkeş kəndində 300 hektara yaxın ərazidə qapalı suvarma şəbəkəsinin qurulması, Külüs kəndində 400 hektar ərazini əhatə edəcək nasos stansiyasının tikintisi davam etdirilir. Bütün bunlar ərzaq təhlükəsizliyinin və insanların məşğulluğunun təmin olunmasına hesablanmışdır. Gələcəkdə də bu işlər davam etdiriləcəkdir. Ona görə ki, muxtar respublika blokada şəraitindədir. Əhalini ərzaqla təmin etmək üçün torpaqlar mütləq əkilməli, yeni və mütərəqqi suvarma şəbəkələri qurulmalıdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikanın torpaqları şoranlaşmaya meyillidir. Ona görə də əkinçilikdə şırım üsulunun tətbiqi və qapalı suvarma şəbəkələrinin qurulması əsas məsələdir. Kənd Təsərrüfatı Nazirliyi, eləcə də digər aid təşkilatlar və torpaq mülkiyyətçiləri şoranlaşmanın qarşısının alınması üçün əkin qaydalarına əməl etməlidirlər. Çünki torpaqların qorunması və bol məhsul istehsalı bu sahəyə yönəldilən vəsaitin ölkə daxilində qalmasına səbəb olur. Hazırda muxtar respublikada tələbatdan artıq istehsal olunan taxıl və bostan-tərəvəz məhsulları dövlət tərəfindən alınaraq anbarlara tədarük olunur. Bu isə əhalinin ilboyu yerli məhsullarla təminatına imkan verir.



Ali Məclisin Sədri Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları tərəfindən qapalı suvarma şəbəkəsinin keyfiyyətlə qurulduğunu bildirmiş, bu işdə əməyi olanlara təşəkkür etmişdir.

Yurdçu kənd sakini İlham Abbasov minnətdarlıq edərək demişdir: "Qapalı suvarma şəbəkəsinin qurulması kənd sakinlərinin böyük sevincinə səbəb olub. Çünki Yurdçu kəndinin sakinləri, əsasən, əkinçiliklə məşğul olur. Əkinçilikdə isə başlıca amil su təminatıdır. Uzun illər su çatışmazlığı səbəbindən torpaq sahələrimiz əkilməyib. Bu gün artıq dövlətimizin iqtisadi gücü bu məsələlərin həll olunmasına imkan verir. Son illərdə Kəngərli rayonunda qurulan qapalı suvarma şəbəkələri min hektarlarla torpağı əkin dövriyyəsinə qatıb. Dövlətimizin yaratdığı bu şəraitdən səmərəli istifadə edəcəyik. Hazırda uzun illər istifadə olunmayan torpaqlarda payızlıq taxıl əkininə hazırlıq görülür. Bütün bunlar sakinlərin rifahının yaxşılaşmasına hesablanıb".

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisində əməyi olanlara hədiyyələr təqdim etmiş və suvarma şəbəkəsini işə salmışdır.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin əhatə etdiyi sahənin əkilməsi, torpaq mülkiyyətçilərinin keyfiyyətli toxum sortları ilə təmin olunması və ərazidə qoruyucu yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Şahbuz rayonunun Aşağı Qışlaq kəndində yaşayan Südabə Məhərrəmovadan söhbət açmaq istəyirəm. Həm illərdən bəri yaratdığı ailə təsərrüfatının başçısı, həm gözəl xalçaçı, həm də bu il şəhərimizdə keçirilən "Kətə" festivalında birinci yerə layiq görülən Südabə xanımdan. Sadaladığım hər üç işi böyük məharətlə bacaran bu xanım haqqında kənddə "Əlləri qızıldır", – deyirlər. Söhbətə keçməzdən əvvəl onu da deyim ki, üç nadir, beş-altı, hətta on işin öhdəsindən eyni məharətlə gələn qadınlarımız yaşayır muxtar respublikamızın kəndlərində. Onlar, sanki anadan xalçaçı, ailə təsərrüfatçısı, festival qalibləri, 5-8 övladının gözəl tərbiyəçisi, hələ üstəlik, kəndlərimizdəki təşkilatların fəal işçisi, ictimaiyyətçi qadın olaraq doğulublar. Elə sadaladığım keyfiyyətlərin əksəriyyəti Südabə xanımda olduğu üçün yazımın qəhrəmanı kimi onu seçdim.*

*"Ailə təsərrüfatları ili" – 2019*

# Həm ailə təsərrüfatçısı, həm xalçaçı, həm də festival qalibi…



Bəzi insanlar ailə təsərrüfatını daha çox gəlir əldə etmək üçün öz istəkləri ilə yaradırlar. Bəzilərini isə həyat özü ailə təsərrüfatçısı edir. Südabə xanım kimi... Taksi sürücüsü işləməklə ailəsinin tələbatlarını ödəyən həyat yoldaşı 2006-cı ildə vəfat edəndən sonra həyatın ağır sınaqları qarşısında sınmayıb qürurla dayanan bu qadın övladlarını da başına yığıb bir təsərrüfat yaratdı. Hər kəsə bəllidir ki, Naxçıvanımızın zəngin və bənzərsiz təbiəti zaman-zaman neçə belə ailəyə hayan olub, onları çarəsiz buraxmayıb. Öz sərvəti ilə insanlarını dardan, çətinlikdən qurtarıb. Elə Südabə xanım da Batabatın allı-güllü çəmənlərindən, Biçənəyin, öz kəndlərinin ruzi mənbəyi olan dağlarından-düzlərindən yığdıqları ələyəz, əvəlik, şıppır, bir də ki həmərsin, çobanyastığı, yemişan, qırxbuğum, kəklikotu, solmazçiçək, dağ nanəsi kimi onlarla dərman bitkiləri ilə bu təsərrüfatın bünövrəsini qoya bildi. Həm yaş, həm də qurudulmuş şəkildə bazara çıxardığı bu nemətlər ailəyə xeyli gəlir gətirdi. İllərdir ki, hər mövsümdə onlar bazara 500 hörükdən artıq ələyəz, şıppır, əvəlik, kiloqramlarla dərman bitkiləri çıxarırlar. Xoşbəxtlikdən torpaq islahatı zamanı bu ailənin qismətinə kəndin "Post" deyilən massivindən yaxşı ərik ağacları olan ərazi düşüb. Həyətlərində isə yaxşı alça ağacları var imiş. Südabə xanım da elə bunların hesabına ailə təsərrüfatını genişləndirməyi düşünüb. Övladları ilə birlikdə ağaclara qulluq edib, bar vaxtı əriyi, alçanı yığıb qurutmaqla bazara çıxarıb və yaxşı alıcı toplaya bilib. Onun qurutduğu meyvələri heç də hər qadın quruda bilməz. Elə buna görə də alıcısı düz qapısınadək gəlib çıxır. Südabə xanımın bu məharətini eşitmişdim. Görüşümüz zamanı bunun sirrini də öyrənməyə çalışdım. O dedi ki, mən əlimdən gələn işlərin hər birini bilməyənlərə, bacarmaq istəyənlərə öyrətməyə hazıram. Ərik, alça qurutmaq çox zəhmət tələb edən bir işdir. Gərək elə edəsən ki, yaxşı quruya, rəngi qaralmaya, xarab olmaya. Ərik yetişən vaxt bəzi adamlar yeşikləri götürüb əriyi çırpıb yığırlar yeşiklərə. Bu zaman ərik əzilir. Amma mən belə etmirəm. Böyük teştlərim var, onları götürüb gedirəm bağa, yığdığımız əriyi bir cərgə düzürəm teştlərə ki, əzilməsin. Gətirirəm həyətdə, kölgə yerdə onu quru otun üstünə yenə bir-bir sərirəm. Qoymuram çox qupquru olsun. Azacıq quruyan kimi yığıram süfrənin arasına. Təxminən, 1 ay sonra quru əriyi soyuq suda yuyuram. Ocağı yandırıb içərisinə bir xeyli su doldurduğum böyük qazanı qoyuram odun üstünə, su qaynayanda torbaya yığdığım əriyi bir neçə dəfə suya salıb-çıxarır, süzgəclərə boşaldıram. Suyu tam süzəndən sonra onu təkrar sərmirəm. Süfrənin arasına yığıb üstünü örtürəm, bir neçə gündən sonra torbalara doldurub əl damında tavandan asıram. Belə qurudulub emal edilən ərik də, alça da yumşaq, rəngi isə sapsarı olur. Yaydan düz növbəti yazadək xarab olmadan qalır.

Südabə xanım ərik, alça, yemişan, həmərsin və gilənardan dadlı kompotlar da hazırlayıb bazara çıxarır. Bu ailə həm də həyətində kartof əkir, iribuynuzlu heyvan, toyuq-cücə saxlayır. İlboyu bazara kartof, süd məhsulları, toyuq, yumurta çıxarır. Südabə xanım deyir:

– Əkib-becərdiklərimizi həm satır, həm də özümüz istifadə edirik. Gördüyünüz bu həyətdə hər cür meyvə-tərəvəz tədarük olunur.

Südabə xanım o kənddə dünyaya göz açıb ki, burada qədimdən bu günədək hana qurulmayan ev olmayıb. Sübh çağından ta gecə yarısınadək kəndin hər küçəsindən, hər dalanından hananı döyəcləyən həvənin səsi eşidilib. Aşağı Qışlaq muxtar respublikamızın qədim dövrlərdən ən çox xalı, xalça, palaz, kilim, xurcun toxunan bölgəsidir. Burada adla tanınan xalçaçı qadınlar yaşayıb, onlar zərif naxışlı, milli ornamentlərlə zəngin xalçalar toxuyublar. Bu xalçalar bir ana yadigarı olaraq indi bütün evləri bəzəyir. Həmin xalçalara baxdıqca, sanki "dil açıb" onları gözünün nuru ilə ilmə-ilmə ərsəyə gətirənlərin təxəyyül və zövqündən, bir də ki zərif əllərin nələrə qadir olduğundan danışır.

Südabə xanım da hələ uşaqlıqdan anasının yanında, hananın qarşısında olub. O deyir ki, evdə altı uşaq idik. Atam rəhmətə getdiyindən ailənin bütün qayğıları anamın üzərinə düşmüşdü. O vaxtlar kolxoz-sovxoz işləri var idi. Anam sübhün alaqaranlığında evdən çıxar, toran vaxtı qayıdardı. Gecə yarısınadək isə palaz, kilim, xalça toxuyub satar, dolanardıq. Hamımız ona həm çöl, həm də ev işlərində dəstək olub, fikir etməyə qoymazdıq. Sonralar bacılarım ailə qurub evdən ayrıldılar, mən balaca olduğum üçün anamla elə hey birlikdə xalça, kilim, palaz toxuyardıq. Ona görə də ilmələrin bütün sirrini-sehrini öyrənə bildim. İndiyədək 20-dən artıq xalça toxumuşam. Qızıma cehiz qoşmuşam, oğlanlarıma vermişəm. Bax bu gördüyünüz xalçalar da 30-40 il bundan əvvəl toxunan, lakin gözəlliyini itirməyən həmin xalçalardandır. İndiyədək mənim hanam heç ortalıqdan yığışmayıb, budur (hananı göstərərək deyir), bax beləcə, quruludur. İndi də nəvələrimə öyrədirəm xalça toxumağı. Deyirəm ki, qoy öyrənsinlər. Nənələrindən bir yadigar qalsın onlara.

Bəli, kəndin Südabə Məhərrəmova, Gülab Rüstəmova, Bəyim Əhmədova, Əruzə Seyidova və vaxtilə gözəl xalçalar toxuyan digər qadınlarının adları Vidadi Muradovun 2013-cü ildə nəşr olunan "Naxçıvan xalçaları" kitabına da salınıbdır. Südabə xanım gözəl xalçaçı olmaqla yanaşı, həm də ip boyamaqda mahirdir. Hananın üstündən asılan rəngbərəng iplərin təbii otlarla boyanmasının sirrini kənddə ondan yaxşı bilən yoxdur.

Qaldı Südabə Məhərrəmovanın builki "Kətə" festivalında bişirdiyi 8-10 növdə kətənin dad-tamı ilə birinci yerin qalibi olmasına, onun milli mətbəximizlə bağlı məharətlərindən günlərlə danışmaqla qurtarmaz. Bu xanımın təndirdə bişirdiyi lavaşdan, südlü dastanadan danışım, cəviz, kartof, lobya çöçələrindən danışım, yoxsa çeşid-çeşid bir-birindən ləzzətli kətə, qutablarından, təndir paxlavasından? Həqiqətən də, əlləri "qızıl" olan bu qadının bacarmadığı iş yoxdur. Həm də ki iş var iş. Biri var işi necə gəldi edəsən, biri də var ki, ona can yandırıb, layiqli şəkildə ortalığa çıxarasan. Bax Südabə xanım belələrindəndir. O deyir ki, xəmirlə bişən nə varsa, bu işin elə əsasını da xəmiri necə yoğurmaq təşkil edir. Xəmir düzgün yoğurularsa, təbii ki, dadlı, ləzzətli də lavaş, kətə, paxlava alınacaq. Bunların hər birinin xəmiri tərkibinə görə fərqli yoğurulur.

Südabə xanımdan ona uğur gətirən kətənin hazırlanması haqqında soruşduqda isə o belə dedi: – O kətə ləzzətli olar ki, xəmirini yumurta, kərə yağı qatılmış südlə yoğurub, yaxşı acıdasan. Bəzən kətənin xəmirini, sadəcə, su ilə də edirlər, amma bunun nə dadı olar ki? İçliyi isə çiriş, quşəppəyi, gicitkən, qazayağı, qarışıq pencərlərlə, ispanaqla hazırlanır. Bunlar əvvəlcə təmiz yuyulur, suyu süzülür, doğranır, duzu-istiotu, soğanı yerində vurulur ki, dadlı olsun. Xəmir hazır olanda bişirilir, təndirdən, sobadan çıxanda isə kətələrin içinə kərə yağı qoyulur. Bu cür bişirilən kətə dadsız ola bilərmi? Südabə xanım "Kətə" festivalının iştirakçılarının onun bişirdiyi kətələri bəyəndiklərindən ağızdolusu danışır, hələ ona yaxınlaşıb bişirilmə qaydasını öyrənənlərin də olduğunu vurğulayır.

40 ildən artıq zaman ərzində Aşağı Qışlaq kənd mədəniyyət evində çalışan, rayonun mədəni-kütləvi tədbirlərində yaxından iştirak edən Südabə Məhərrəmova fəal ictimaiyyətçi, zəhmətsevər insan, qayğıkeş ana olmaqla yanaşı, həm də milli dəyərlərimizi yaşadanlardan, milli mətbəximizin gözəl təbliğatçılarındandır. Azərbaycan qadınına məxsus ən gözəl keyfiyyətləri özündə əks etdirən belə qadınlar hər birimizin mənəvi anasıdır. Onlardan öyrənməli, gənclərimizə də öyrətməliyik ki, mənəvi dəyərlərimizi yaşada bilək.

**✍ Mətanət MƏMMƏDOVA**

## Ötən ay dəmir yolu nəqliyyatı vasitəsilə 12 mindən artıq sərnişin daşınıb



Muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafı diqqətdə saxlanılır. İyul ayında bu nəqliyyat vasitəsilə ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 42 min tondan artıq müxtəlif təyinatlı yük, Ordubad-Şərur və Şərur-Culfa istiqamətlərində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 12 mindən artıq sərnişin daşınmışdır.

Ötən ay vaqonlarda və lokomotivlərdə cari təmir işləri görülmüş, Culfa Lokomotiv Deposunda lokomotivlər texniki baxışdan keçirilmiş, Culfa İstismar Vaqon Deposunda müxtəliftipli yük və sərnişin vaqonlarında cari təmir işləri aparılmışdır. Həmçinin baş və stansiya yollarında, eləcə də yağış və leysan sularının maneəsiz ötürülməsi üçün dağüstü kanallarda, körpü yataqlarında, küvetlərdə və beton borularda, alçaq və yüksəkgərginlikli elektrikötürücü hava və təmas şəbəkəsi xətlərində təmir işləri aparılmış, dəmiryol obyektlərinin və elektrovozların fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə işlər davam etdirilmişdir.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***

## Təsərrüfat sahibləri ilə maarifləndirici görüşlər keçirilib

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən iyul ayında muxtar respublikanın şəhər və rayonlarında ailə təsərrüfatı üzvləri, torpaq mülkiyyətçiləri və sahibkarlarla tarla-seminar müşavirələri keçirilmiş, yeni ailə təsərrüfatlarının yaradılması diqqətdə saxlanılmışdır.*

Taxıl biçininin vaxtında və itkisiz başa çatdırılması üçün torpaq mülkiyyətçilərinə müvafiq köməklik göstərilmiş, biçindən sonra sahələrin küləşdən təmizlənməsi və yandırılmasının zərərləri ilə bağlı maarifləndirmə işləri aparılmışdır. Həmçinin muxtar respublikada məhsul bolluğunun yaradılması istiqamətində biçindən sonra təkrar yay əkinlərinin aparılmasının əhəmiyyəti və sahələrin hazırlanması ilə bağlı tədbirlər keçirilmiş, kartofçuluq, meyvə-tərəvəz, bostançılıqla məşğul olan torpaq mülkiyyətçilərinə tövsiyələr verilmiş, üzüm sahələrinin becərilməsinə dair qaydalar izah olunmuşdur.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar tədbirlər görülmüş, iri arıçılıq təsərrüfatları sahibkarlarının iştirakı ilə görüşlər, yaylaqlardan səmərəli istifadə edilməsi ilə bağlı müşavirələr keçirilmiş, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində süni mayalandırma tədbirləri davam etdirilmişdir. "Araz" Elm-İstehsalat Birliyinin laboratoriyasında torpaq nümunələri analiz edilərək nəticələrə dair yekun aktları verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Ekoloji monitorinqlər davam etdirilir



Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, təbii sərvətlərdən səmərəli istifadənin tənzimlənməsi, flora və fauna ehtiyatlarının qorunması məqsədilə tədbirlər iyul ayında da davam etdirilmişdir. Ötən ay ətraf mühitin mühafizəsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı 5 yoxlama-reyd keçirilmiş, 3 inzibati xəta qeydə alınmış və qanunamüvafiq tədbirlər görülmüşdür. Ay ərzində ekoloji monitorinqlər davam etdirilmiş, Naxçıvan şəhəri, Culfa, Ordubad, Babək, Şahbuz rayonlarının, ümumilikdə, 30-dan çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmışdır.

İyul ayında havaların isti keçməsi ilə əlaqədar yeni əkilmiş və mövcud meşə ərazilərində suvarma işləri davam etdirilmiş, meşələrin yanğından mühafizəsi üçün profilaktik tədbirlər görülmüş, 1000 kiloqramdan çox ərik, alma, alça, gilənar və tut toxumu tədarük olunmuşdur. Muxtar respublika ərazisində mövcud faydalı qazıntılardan səmərəli istifadə və bu sahədə kəşfiyyat işlərinin aparılması davam etdirilmiş, Qarabağlar travertin yatağında təftiş xarakterli 220 metr axtarış quyuları qazılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## İyul ayı ərzində muxtar respublikada növbəti əmək yarmarkaları təşkil olunub



*Muxtar respublikada həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.*

Bu sahədə həyata keçirilən tədbirlər sakinlər tərəfindən onlara göstərilən yüksək qayğı kimi dəyərləndirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq iyul ayı ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan şəhərində və muxtar respublikanın digər rayonlarında növbəti əmək yarmarkaları keçirilib.

Nəzərdə tutulmuş qrafik əsasında muxtar respublikanın şəhər və rayonlarında keçirilən əmək yarmarkalarında işaxtaranlara, ümumilikdə, 237 idarə, müəssisə və təşkilatdan 1785 boş iş yeri təqdim edilib. Həmin boş iş yerlərindən 1362-si dövlət, 423-ü isə qeyri-dövlət müəssisələrində olub.

Əmək yarmarkalarının yekun təhlilinə əsasən məşğulluq mərkəzləri tərəfindən Naxçıvan şəhərindən 48, Şərur rayonundan 44, Babək rayonundan 31, Ordubad rayonundan 22, Culfa rayonundan 25, Şahbuz rayonundan 16, Kəngərli rayonundan 28, Sədərək rayonundan isə 12, ümumilikdə, 226 nəfər müxtəlif xarakterli işlərlə təmin edilib. Həmçinin əmək yarmarkalarının keçirilməsində tətbiq edilmiş yeniliklərə əsasən peşə ixtisasına malik olmadığı üçün müvafiq iş yerlərinə göndərilə bilməyən 13 nəfərin özünüməşğulluğunun təmin edilməsi məqsədilə qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Məlum olduğu kimi, ötən ilin oktyabr ayında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində Veteranlar Şurasının yenidən təşkilatlanması ilə əlaqədar ümumi yığıncaq keçirilib. Şuraya 1985-ci ildən 2019-cu ilin yanvar ayınadək daxili işlər orqanlarında qüsursuz xidmət etmiş istefada olan polis polkovniki Yusif Həsənov sədr seçilib. Ötən müddət ərzində adıçəkilən şura öz işini necə qurub? Bu və ya bu kimi suallara cavab tapmaq üçün onunla həmsöhbət olduq.*

# Veteran polislərin təcrübəsindən səmərəli istifadə olunur

## *Onlar yenə də xidmətdədirlər…*



***– Yusif müəllim, şuranın yaradılmasında başlıca amillər barədə məlumat verməyinizi xahiş edirik.***

– Ulu öndər Heydər Əliyev deyirdi: ***“Veteranlar bizim qızıl fondumuzdur”***. Görkəmli dövlət xadiminin bu qənaətində böyük həqiqət var. Ona görə də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi sistemində Veteranlar Şurası yaradılması qərarına gəlindi. Əvvəlcə muxtar respublika daxili işlər orqanlarında xidmət edib təqaüdə buraxılan sabiq polis əməkdaşları haqqında məlumatlar əldə olundu. Həmin məlumatlar əsasında nazirlikdə Veteranlar Şurasının elektron bazası yaradıldı. Rayonların hamısında təqaüddə olan polis əməkdaşları ilə də görüşlər keçirildi, onların qarşılıqlı birgə fəaliyyətə cəlb olunması istiqamətində söhbətlər aparıldı.

2018-ci ilin oktyabr ayında keçirilən veteranların ilk ümumi yığıncağından və nazirliyin Veteranlar Şurasının yaradılmasından sonra ərazi polis orqanlarında yığıncaqlar keçirilərək bu qurumlarda da Veteranlar şuraları yaradılıb. Şuralar ulu öndər Heydər Əliyev tərəfindən müəyyən olunmuş və “Veteranlar haqqında” Qanunla təsbit edilmiş prinsipləri rəhbər tutaraq öz işini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun veteranların qarşılıqlı birgə fəaliyyəti ilə bağlı verdiyi tapşırıq və tövsiyələri əsasında qurub.

Birgə fəaliyyətdə işin təşkili zamanı kəmiyyət və keyfiyyət göstəricilərinə xüsusi diqqət verilməsi Veteranlar Şurasının və ərazi polis orqanlarının qarşısına bir vəzifə kimi qoyulub.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 2018-ci il 30 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının fəaliyyətinin təşkilinə dair Əsasnamə”yə uyğun olaraq daxili işlər orqanlarının qarşısında duran vəzifələrin icrası zamanı veteranların təcrübəsindən, bilik və bacarıqlarından daha geniş və səmərəli istifadə edilməsinə xüsusi diqqət yetirilib. Onların ictimai təhlükəsizliyinin təmin edilməsinə, cinayətlərin profilaktikası və açılmasına, cinayətkarların axtarış tədbirlərinin planlaşdırılmasına, şəxsi heyətin təlim-tərbiyəsinə, həmçinin əhali arasında hüquqi maarifləndirmə tədbirlərinə və digər işlərə cəlb edilməsinə önəm verilib.

***– 2019-cu il üçün şura tərəfindən fəaliyyətin əsas istiqamətlərini müəyyənləşdirən tədbirlər planı hazırlanaraq icraya yönəldilib. Həyata keçirilən tədbirlər hansı sahələri əhatə edir?***

– Qeyd etmək istərdim ki, şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasında, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasında, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hisslərinin formalaşdırılmasında, nizam-intizama və qanunçuluğa ciddi əməl edilməsinin vacibliyinin izah olunmasında və digər bu kimi tədbirlərin həyata keçirilməsində veteranların yaxından iştirakı təmin olunur.

***– Təşkilatlanmadan bu günə qədər polis veteranları daxili işlər orqanlarına hansı lazımi köməkləri göstərirlər?***

– Təqaüddə olan sabiq polis əməkdaşları əhalidə qanunsuz saxlanılan silahların yığılması istiqamətində həyata keçirilən tədbirlərə fəal cəlb olunub. Onların iştirakı ilə 2 avtomat silah, 1 PM markalı, 1 TT markalı tapança, 1 TOZ-8 markalı silah, 9 ov silahı və 1300-ə yaxın müxtəlif çaplı patron könüllü olaraq polis orqanlarına təhvil verilib.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində də əməkdaşlara köməklik edən veteranlarımız bu istiqamətdə maarifləndirici-profilaktik tədbirlərin həyata keçirilməsində və inzibati xətaların aşkar edilməsində yaxından iştirak ediblər. Muxtar respublikada təqsirləndirilən şəxslərin axtarışı istiqamətində həyata keçirilən tədbirlərə köməklik çərçivəsində Kəngərli Rayon Polis Şöbəsi üzrə 1 nəfər axtarışda olan şəxsin yeri müəyyən edilib, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində polis veteranlarından əməliyyat marağı kəsb edən məlumatlar daxil olub.

Elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadənin qarşısının alınması istiqamətində də polis veteranlarımızın fəaliyyəti olub və Culfa Rayon Polis Şöbəsi üzrə elektrik enerjisindən 1 qanunsuz istifadə faktı aşkarlanıb.

***– Bildiyimizə görə, gənc kadrlarla işin təşkilində də veteranların köməyindən geniş istifadə olunur...***

– Doğrudur, bu sahədə veteranlarımızın təcrübəsindən istifadəyə böyük önəm verilir. Hesabat dövründə polis veteranları daxili işlər orqanlarına yeni xidmətə qəbul olunmuş gənc əməkdaşlarla hamilik işinin təşkili və peşə vərdişinin aşılanmasında, xidmətə qəbula namizədlərin öyrənilməsində yaxından iştirak ediblər.

Bir neçə münaqişəli ailənin probleminin həllində polis veteranlarının ictimaiyyətdə olan nüfuzundan geniş istifadə edilib, həmin ailələrlə görüşlər keçirilib.

Himayəsində azyaşlı övladı olan, üzərinə fərdi profilaktik iş açılmış valideynlər və barəsində profilaktik-yığım işi açılmış həbsdən gəlmiş şəxslərlə aparılan profilaktik tədbirlərdə veteranlarımız da köməkliklərini göstəriblər.

Veteranlar bir neçə dəfə azyaşlıların əməyindən istifadə olunması hallarının aşkarlanması məqsədilə təşkil olunan reyd yoxlamalarında da iştirak edib, polis sahə inspektorları ilə birlikdə fərdi ailə təsərrüfatlarının yaradılması və əhəmiyyəti mövzusunda aparılan maarifləndirmə tədbirlərində tövsiyələrini veriblər.

Muxtar respublika haqqında sosial şəbəkələrdə yayılan, həqiqətə uyğun olmayan qərəzli məlumatların təkzib edilməsində də polis veteranlarının gücündən səmərəli istifadə olunması üçün müvafiq tədbirlər həyata keçirilir.

Bakı şəhərində yaşayan polis veteranları ilə əlaqə yaradılması istiqamətində tədbirlər davam etdirilir, Daxili İşlər nazirinin verdiyi tapşırıq və tövsiyələr onlara çatdırılır.

Veteran polis əməkdaşlarımız, həmçinin dövlət əhəmiyyətli aktual tədbirlərin keçirilməsində yaxından iştirak edirlər. Təhsil müəssisələrində “Mənim polisim məni qoruyur” mövzusunda 58 tədbir keçirilib. Polis veteranlarımız daxili işlər orqanlarının ictimai işlərinin təşkilində və ictimai qurumların fəaliyyətində də yaxından iştirak edirlər. Hesabat dövründə bu istiqamətdə ardıcıl iş aparılıb və təqaüddə olan polis əməkdaşları İctimai şuralara üzv seçiliblər.

***– Yəqin ki, şuranın fəaliyyətində hələ həllini tapmamış məsələlər də yox deyil...***

– Təbii ki, ötən müddət ərzində uğurlarımız olsa da, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində müəyyən çatışmazlıqlar da mövcud olub. Fəaliyyətin geniş təhlili göstərir ki, qarşıya qoyulan bəzi vəzifələrin yerinə yetirilməsində, xüsusilə də fərdi ailə təsərrüfatlarının əhəmiyyətinin təbliğində, daxili işlər orqanlarında xidmətə namizədlərin öyrənilməsi sahəsində işlərin heç də hamısı intensiv səviyyədə qurulmayıb.

Çatışmazlıqların əsas səbəbi isə yenidən təşkilatlanmadan az müddət keçməsi ilə əlaqədar olaraq veteranlarla işin təşkili prosesində müəyyən praktikanın olmaması üzündən təcrübəsizliyə yol verilməsidir. Mövcud çatışmazlıqların aradan qaldırılması məqsədilə yaxın gələcəkdə lazımi tədbirlər görüləcək.

***– Polis veteranlarının əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər haqqında da məlumat verməyinizi xahiş edirəm.***

– Hesabat dövründə qarşılıqlı birgə fəaliyyətin əhəmiyyətini qiymətləndirən, daxili işlər orqanlarına yaxından köməklik edən polis veteranlarının mənəvi-psixoloji durumlarının yüksəldilməsi və sosial rifah halının yaxşılaşdırılması istiqamətində də müəyyən işlər görülüb.

İctimai asayişin mühafizəsi, cinayətkarlığın profilaktikası, cinayət hadisələrinin qarşısının alınması və açılmasında yaxından köməklikləri, habelə gənc nəslin təlim-tərbiyəsində, milli ruhda formalaşmasında fəal iştirakları da nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Daxili İşlər nazirinin təqdimatı əsasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq əmri ilə 10 polis veteranı “Azərbaycan Polisinin 100 illiyi” yubiley medalı ilə mükafatlandırılıb. Həmçinin Naxçıvan Muxtar Respublikası Daxili İşlər nazirinin əmri ilə 1 polis veteranı nazirliyin Fəxri Fərmanı ilə təltif edilib, 9 polis veteranına isə təşəkkür elan olunub.

Polis veteranlarının sağlamlıqlarının mühafizə və bərpası da diqqətdə saxlanılıb, müalicəyə ehtiyacı olanların müxtəlif xəstəxanalarda müalicələri üçün lazımi şərait yaradılıb, onlardan bəzilərinə maddi köməkliklər də göstərilib.

Bu tədbirlərlə yanaşı, daxili işlər orqanlarına xidmətə qəbul prosesində polis veteranlarının övladlarına üstünlük verilərək 3 gənc əməkdaş kimi xidmətə, 1 nəfər isə mülki işə qəbul olunub.

Ali Məclisin Sədri cənab Vasif Talıbovun polis veteranlarına böyük qayğısının daha bir təzahürü isə Kəngərli Rayon Polis Şöbəsindən təqaüdə buraxılmış sabiq polis əməkdaşına rayonun Qıvraq qəsəbəsində 3 otaqlı mənzilin verilməsidir. Polis veteranlarının fəaliyyətlərinin dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsi bizi üzərimizə qoyulan vəzifələri layiqincə yerinə yetirməyə daha da ruhlandırır.

Çalışacağıq ki, hərtərəfli inkişaf etməkdə olan doğma diyarımızda sabitliyin, asayişin daim bərqərar olmasında biz də öz bacarıq və təcrübəmizlə fəal iştirak edək.

*– Müsahibə üçün sağ olun!*

**Muxtar MƏMMƏDOV**

# Mədəni-kütləvi tədbirlər davam etdirilir



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən iyul ayında əlamətdar və tarixi günlərlə bağlı tədbirlərin təşkili diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95, İmadəddin Nəsiminin 650, Ərtoğrol Cavidin və Hüseyn İbrahimovun 100 illik yubileyləri, eləcə də Babək Rayon Xalq Teatrının fəaliyyətə başlamasının 10 illiyi münasibətilə tədbirlər keçirilmişdir.

Muzey işinin günün tələbləri səviyyəsində qurulması məqsədilə tədbirlər davam etdirilmiş, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində “Gənc nəslin maarifləndirilməsində muzeylərin rolu” mövzusunda dəyirmi masa keçirilmişdir. Muzey fondlarının daha da zənginləşdirilməsi işinə töhfə olaraq ötən ay muzeylərə 354 yeni eksponat daxil olmuşdur. Muzeyləri 51 min 752 tamaşaçı ziyarət etmişdir ki, onlardan 18 min 392 nəfəri əcnəbi vətəndaşlardır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə tabe müəssisələrdə çalışan gənclərdən ibarət komandalar arasında “Yaşa və öyrən” intellektual bilik yarışının final turu keçirilmiş, qaliblər diplom və hədiyyələrlə təltif edilmişlər.

Ötən ay kitabxanaların da fəaliyyəti diqqətdə saxlanılmış, muxtar respublika kitabxanalarında tarixi və əlamətdar günlər, görkəmli mədəniyyət və incəsənət xadimlərinin yubileyləri ilə əlaqədar tədbirlər, uşaq bağçalarında nağıl günləri keçirilmiş, oxunması zəruri olan kitabların müzakirəsi təşkil olunmuşdur. Kitabxanalarda yeni oxucu sayı 283, oxucu gəlişi 8 min 217 nəfər, kitab verilişi 49 min 247 nüsxə olmuşdur. Elektron kataloqa 729 adda kitab işlənmiş və ümumilikdə, elektron kataloqda kitabların sayı 12 min 658-ə çatdırılmışdır. Elektron kitabxanadan 115 oxucu istifadə etmişdir.

Culfa və Şərur rayonlarında “Xalq yaradıcılığı günü” keçirilmiş, muxtar respublikanın mədəniyyət evləri və klub müəssisələrində əlamətdar və tarixi günlərlə bağlı mədəni-kütləvi tədbirlərin, baxış-müsabiqələrin təşkili davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Gənclərlə görüş keçirilib

*12 avqust – Beynəlxalq Gənclər Günü ilə əlaqədar Naxçıvan şəhərində yerləşən “Saat Meydanı” turistik istirahət mərkəzində fəaliyyət göstərən “Batumi” restoranında gənclərlə görüş keçirilib.*



Əvvəlcə gənclərə “Cinema-plus”da Naxçıvan televiziyasının hazırladığı qısametrajlı film nümayiş etdirilib. Daha sonra isə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəisi Canməmməd Canməmmədov çıxış edərək gənclərə muxtar respublikada aparılan gənclər siyasəti və fiziki imkanları məhdud yeniyetmə və gənclər üçün yaradılan şərait haqqında məlumat veriblər.

Bildirilib ki, 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda 12 avqustun Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Həmin gündən etibarən Azərbaycanda da bu gün hər il qeyd olunur.

55 gəncin iştirakı ilə keçirilən görüşdə gənclər üçün çay süfrəsi təşkil olunub.

Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Gənclər Fondunun və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

**Ceyhun MƏMMƏDOV**

# Açıq səma altında kitab sərgisi



*Ordubad Rayon Mərkəzləşmiş Kitabxana Sisteminin təşəbbüsü ilə Ordubad şəhərində açıq səma altında kitab sərgisi keçirilib.*

Sərgidə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”ndakı nümunələr, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə bu il yubileyləri keçirilən yazıçı və şairlərin əsərləri, ordubadlı qələm sahiblərinin kitabları nümayiş etdirilib. Rayon sakinləri sərgiyə böyük maraq göstəriblər.

**Abbas SEYİD**

Yaşıl donun geyib ulu şəhərim,
Hüsnünü bəzəyib güllər, çiçəklər.
Ruha qida verir nurlu səhərim,
Yaşamaq eşqiylə coşur ürəklər.

Qocaman çinarlar durub yan-yana,
Köksündən zəhmətin xoş ətri saçır.
Dönübdür şəhərim cənnətməkana,
Baxdıqca göz gülür, könül dil açır.



*Yaşıl guşə*

# Yaşıllıqlar sağlam həyatımızın rəhnidir

Yəqin ki, bu kiçik şeir parçasından söhbətimin şəhərimizin hüsnünə yaraşıq verən, şux təravəti ilə gözümüzü, könlümüzü oxşayan, tamaşa edərkən gözəlliyinə məftun olduğumuz yaşıllıqlar barədə olacağını müəyyən etdiniz. Bəli, ilin isti aylarında günəşin yandırıcı təsirindən qorunmaq, dost-tanışlarla söhbət edərək gözəl, mənalı istirahət keçirmək üçün tez-tez şəhərimizin yaşıllıq ərazilərinə üz tuturuq. İndi günün müxtəlif saatlarında xüsusi landşaft dizaynına malik, əsrlərin sərt sınaqlarına sinə gərən, köksündə illərin həsrətini, sevincini, kədərini gizlədən qocaman çinar ağaclarının çətir tutduğu park və xiyabanlarımıza yolunuz düşsə, orada hər yaş dövründən olan insanlarla qarşılaşa bilərsiniz. Yaşlı insanlar rahat oturacaqlarda əyləşib olanlardan-keçənlərdən, həyatlarının ayrı-ayrı dönəmlərində baş verən hadisələrdən söhbət açarkən gənclər füsunkar təbiət ərməğanlarının qoynunda doyunca gəzir, mənalı günlərindən xatirə olsun deyə, şəkillər çəkdirir, şən-şaqraq gülüşlü, məsum uşaqlar isə şıltaqlıq edir, ağacların əhatəsində qaçdı-tutdu oynayırlar. Bu mənzərələri gördükcə insan övladının təbiətə, yaşıllıqlara sıx bağlılığının bir daha şahidi olursan. Təbii ki, yaşıllıqlara sevgi heç də təsadüfdən yaranmır. Çünki psixoloqlar da məhz yaşıl rəngin insana sakitləşdirici təsir göstərdiyini, gözlərə müsbət enerji bəxş etdiyini söyləyirlər. Bu mənada, yaşıllıqları həm də sağlam həyatımızın rəhni adlandıra bilərik...





Tarixi vərəqlədikcə aydın olur ki, doğma şəhərimizin yaşıllıqlara bürünməsi birdən-birə baş tutmayıb, könülaçan gözəlliklər illər uzunu içində inam, ümid qığılcımlarını daşıyan insanların fədakar zəhmətinin bəhrələridir. Görülən işlər içərisində ekoloji tədbirlərə xüsusi diqqətin artırılması, mütəmadi olaraq keçirilən iməciliklərdə sakinlərin fəallıq göstərməsi böyük əhəmiyyət daşıyır. Son illər gənclərin də ekoloji tədbirlərdə fəallığı, onların iştirakı ilə "Gənclər bağı"nın salınması da təbiətə həssas münasibətin sağlam gələcəyimizə hesablandığını göstərir. Şəhərimizin yaşıllıqlar, təmizlik və abadlıq diyarına çevrilməsində müasir suvarma metodlarından istifadə, eləcə də parklarda landşaft dizaynına xüsusi diqqətin yetirilməsi də önəmli rol oynayır. Naxçıvan təbiətinə uyğun bitki və ağac növlərinin gətirilərək yaşıllaşdırmada geniş istifadə edilməsi şəhərimizin ilin bütün fəsillərində ecazkar görünüşə malik, füsunkar, gözoxşayan qalmasına imkan verir. Bütün bu gözəlliklər şəhərimizin qonaqlarının da estetik zövqünü oxşayaraq onların yaddaşında unudulmaz anlarla dolu xoş təəssüratlar yaradır. Onu da xüsusilə qeyd etmək yerinə düşər ki, əgər illər öncə sakinlər, eləcə də qədim diyarın qonaqları sərinlik tapmaq, mənalı istirahət keçirmək üçün ən ucqar kəndlərə üz tutmalı olurdularsa, indi buna o qədər də ehtiyac qalmır. Çünki şəhərin özündə, eləcə də bir neçə kilometr aralıda yaşıllıqlar qoynunda gözəl istirahət məkanları salınıb. Bu da insanların asudə vaxtlarını mənalı, səmərəli keçirmələrinə imkan verir.

Yaşıllıqlar salmaq, təbii gözəlliklər yaratmaq işin bir tərəfidirsə, bunu qoruyub saxlayaraq gələcək nəsillərə ərməğan etmək isə hər birimizin mənəvi borcudur. Ağacların, yaşıllıqların xüsusi qulluq, nəvaziş tələb etdiyini nəzərə alanda yaşıllaşdırma tədbirlərinin çətinliyi, məsuliyyəti daha da ön plana çıxır. Bu mənada, şəhərimizdəki yaşıllıq ərazilərinin miqyasının ilbəil genişləndirilməsi, eləcə də onların vaxtlı-vaxtında suvarılması, aqrotexniki qulluq göstərilməsi işlərində "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsin fəaliyyəti də danılmazdır. Onu da xüsusilə qeyd etmək lazımdır ki, əvvəllər muxtar respublikada müxtəlif tinglərə və gül kollarına olan tələbatın bir hissəsi idxal hesabına həyata keçirilirdi ki, bu da həm maddi xərclərə, həm də vaxt itkisinə yol açırdı. Lakin "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsin tingçilik sahəsi üçün yeni kompleksin tikilməsi və "İqlim otağı"nın yaradılması tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsinə imkan verir. Burada ərazilərə uyğun meyvə, həmişəyaşıl tinglər, bəzək kolları və güllər yetişdirilir. Müasir avadanlıqlarla təmin olunmuş "İqlim otağı"nda tinglər və gül kolları açıq havaya nisbətən daha tez böyüdüyündən bu, qısa müddətdə tələbatın tamamilə ödənilməsinə şərait yaradacaq.

Şəhərimizdə yaşıllıq əraziləri ilbəil artırılır, meşə-bərpa işləri sürətləndirilir. Yeni yaşıllıq zonalarına aqrotexniki qulluq da diqqətdə saxlanılır. İlin bütün fəsillərində yaşıl libaslı zəhmətkeş bağbanları şəhərimizin gəzməli-görməli yerlərində mövsümə uyğun işlər apararkən görmək olar. Yenicə boy göstərən fidanların əkilməsindən nəsillər yadigarı sayılan qocaman ağacların qurumuş hissələrinin budanmasınadək bütün aqrotexniki tədbirləri vaxtında və digər sahələrə zərər vermədən həyata keçirən bu zəhmətkeşlərin yaxın köməkçisi isə müasir texnikalardır.

Görülən tədbirlər yaşıllıqlar qoynunda istirahət edən sakinlər tərəfindən də böyük rəğbətlə qarşılanır. Ötən günlərdə Əcəmi seyrəngahında həmsöhbət olduğum, yaşı 80-i adlamış, təqaüdçü Sevil nənə bu barədə ürəkdolusu danışdı:

– Hər dəfə bu qocaman çinar ağaclarının altında əyləşib bu təmiz havanı, sərinliyi hiss edəndən sonra doğma şəhərimin keçdiyi keşməkeşli yollar gözlərim önündə canlanır. Qışda soyuqdan qorunmaq üçün şəhərimizdə kimsəsiz, qərib kimi görünən beş-on ağacı kəsib istisinə qızındığımız, yayda isə "kaş ki, indi həmin ağaclar qalardı, kölgəsində sərinlik tapardıq", – dediyimiz vaxtları indi ürəkağrısı ilə xatırlayıram. Ancaq, şükürlər olsun ki, o ağrılı illərin yalnız xatirələri qalıb, şəhərimiz tanınmaz dərəcədə dəyişib, gözəlləşib, yaşıllıqlar məskəninə çevrilib. İndi bu gözəl təbiətin qoynunda istirahət edən zaman nəvə-nəticələrimə də olanlardan-keçənlərdən söhbət açır, bugünkü gözəlliklərin, yaşıllıqların qədir-qiymətini bilmələrini tövsiyə edirəm. Ağaclara xüsusi nəvazişlə yanaşan yaşıl libaslı bağbanların min bir zəhmət hesabına, alın təri tökərək təbiət ərməğanlarını qoruması, onları yaşatması məni ürəkdən sevindirir. Onların ağaclara qulluğunun şahidi olanda fərəhlənir, diblərinə atılan tullantıları təmizləmələrini görəndə isə təəssüflənirəm. Öz-özümə düşünürəm ki, axı necə ola bilər yaşıllıqlar öz gözəlliyi və təravəti ilə insana zövq, yaşamaq üçün ən önəmli sayılan oksigen versin, insan isə bunun qarşılığında həmin təbiət ərməğanına laqeyd münasibət göstərib ona zərər vursun? Həmişə çalışıram ki, belə hallara qarşı iradımı bildirim, park və xiyabanlarda bizim yaxşı istirahət etməyimiz üçün çalışan insanların necə böyük zəhmət çəkdiklərini gənclərə izah edim. Çünki onlara düzgün yol aşılamaq məsuliyyəti biz böyüklərin üzərinə düşür. Fikrimcə, hər kəs bu məsələdə həssas olmalıdır. Öz yaşadığımız evi, həyəti təmiz, səliqəli saxladığımız üçün bizə əhsən söylənirsə, böyük evimiz sayılan doğma şəhərimizə də eyni münasibət bəsləməliyik ki, xarici ölkələrdən gələn qonaqlarımızdan da daim xoş ifadələr eşidək.

*Bu gün istidən sərinlik tapmaq üçün köməyimizə çatan yaşıllıqların bir vaxtlar xəyallarını quran, bu gün isə arzusunda olduqları gözəllikləri görüb şükür edən ahıl insanların yaşadıqları çətinlikləri, bu barədə dediklərini biranlıq xəyalımızda canlandırsaq, bu işə daha həssas yanaşarıq. Gəlin sağlam həyatımızın rəhni sayılan yaşıllıqları qoruyaq ki, gələcək nəsillər ünvanımıza qınaq deyil, alqışlar səsləndirsinlər.*

✍ **Nail ƏSGƏROV**

*Yurdumuzun nemətləri*

# Dadlı və faydalı Nehrəm qarpızı

*Dadlı yay nemətlərindən biri olan qarpız muxtar respublikamızda daha çox Babək rayonunun Nehrəm kəndində əkilib-becərilir. Ən böyük kənd yaşayış məntəqələrindən biri olan Nehrəmin zəhmətkeş insanlarının ərsəyə gətirdikləri bu bostan bitkisi hər yerdə adla tanınır. Qarpız nehrəmlilər üçün əsas qazanc mənbəyi sayılır. Bazarlarda ən çox üstünlük verilən qarpızın alıcısı isə həmişə başının üstündə olur.*

Neçə illərdir ki, bu sahə ilə məşğul olan torpaq mülkiyyətçisi, Nehrəm kənd sakini Cəmşid Həsənovla həmsöhbət olduq. Öyrəndik ki, təcrübəli əkinçi 20 hektar sahədə qarpız yetişdirib və indiyə qədər 250 ton məhsul əldə edib. O deyir ki, yaxşı becərildikdə 1 hektar sahədən 35-40 ton məhsul götürmək mümkündür. Torpaq sahələrini suvarmaqda heç bir çətinliyimiz yoxdur. Bənəniyar gölü və Heydər Əliyev Su Anbarından verilən su əkin sahələrini suvarmağa kifayət edir.

Qarpızın becərilmə üsullarından danışan müsahibim deyir ki, bostan bitkiləri, o cümlədən qarpız günəş şüası düşən yerlərdə əkilib-becərilməlidir. Müsahibim Türkiyənin Adana şəhərindən gətirdiyi "Holland" sortu qarpız tumlarını martın sonu, aprelin əvvəllərində torpağa basdırıb. Qarpızı istixana üsulu ilə becərdiklərini deyən Cəmşid Həsənov xüsusilə vurğulayır ki, tumları əvvəllər istifadə edilmiş, ya da dincə qoyulmuş torpaq sahələrində əkməklə daha çox məhsul əldə etmək mümkündür. Qarpız suyu sevən bitki olduğu üçün kollar çiçəkləyənə qədər bir neçə dəfə su veririk. Aprel-iyul ayları ərzində üç dəfə əkin aparır, şaxta düşüncəyə qədər də məhsul əldə edə bilirik. Bundan əlavə, qabığı nazik olan "ərəzən qarpızı"nı istixanada yox, açıq torpaq sahələrində yetişdiririk və vaxtında qulluq olunduqda iyulun sonları yaxşı məhsul əldə edirik. Çəkilən zəhmətin hədər getməməsi üçün yetişdirilən məhsulun qayğısına qalmağı bacarmaq lazımdır. Qarpızı temperaturu 2-30 dərəcə olan yerdə, sortlardan asılı olaraq 3-6 aya kimi saxlamaq mümkündür. Naxçıvan şəhərində və muxtar respublikanın bütün bölgələrində satış həyata keçiririk.



Cəmşid dayı qarpızın becərilməsindən həvəslə danışdıqca xatırlayıram ki, qarpız almaq üçün hansı satıcıya yaxınlaşsaq, ilk sualı belə olur: "Kəsim verim, yoxsa özünüz seçirsiniz?" Qarpızın yetişib-yetişmədiyini yoxlamaq üçün kəsib sonra alırıq. Ancaq düşünəndə ki, qarşındakı bu işin bilicisidir, çox vaxt seçimi onun ixtiyarına buraxırıq.

Ötən şənbə kənd təsərrüfatı malları satışı yarmarkasında olarkən satıcıdan "Haradan gətirmisiniz qarpızları?" – deyə soruşmuşdum. "Hamısı Nehrəm qarpızıdır", – deyib, təxminən, 6-7 kiloqram ağırlığında qarpızı çəkib mənə uzatmışdı. Bu zaman məni maraqlandıran daha bir sualla satıcıya yenidən müraciət etmişdim: "Bəs yetişmiş qarpızı necə tanımaq olar?" Satıcı mənə izah etmişdi ki, yaxşı yetişmiş, şirin, sulu və içərisi qıpqırmızı olan qarpızın baş hissəsində zolaqların ucları bir-birinə daha yaxın, saplağı spiralvarı, yaşıl zolaqları tünd rəngli və bir-birinə daha yaxın olur. Qarpız almaq üçün yaxınlaşan insanlar dədə-babalarımızdan qalma bir sıra ənənəvi üsullardan istifadə edirlər. Məsələn, yetişmiş qarpızı yüngülcə əl ilə sıxdıqda o, yay kimi əli geri qaytaracaq. Digər tərəfdən barmaqla vurarkən küt səs verir, səthi parlaq olur. Əgər kəsilmiş qarpızın içərisi parlaq qırmızı, tumları isə qəhvə rəngi və qaradırsa, ala bilərsiniz. Qarpızın böyük olması onun keyfiyyətliliyini göstərmir, əsas məsələ qarpızı ələ aldıqda verdiyi ağırlıqdır. Qarpız alarkən sapının yaşıl olmamasına diqqət edin. Təcrübəli alıcı qarpızın yetişib-yetişmədiyini ilk baxışda müəyyən edə bilir.

Tərkibi vitaminlərlə zəngin olan qarpızın insan orqanizmi üçün faydaları çoxdur. Şirəli və sərinləşdirici bu məhsul aclığı və susuzluğu aradan qaldırır. Xərçəng xəstəliyinin müalicəsində xüsusi əhəmiyyətə malik olan qarpızın tərkibi likopen və sitrolin ilə zəngindir. Göz, mədə ağrısının qarşısının alınmasında, qan təzyiqinin normallaşmasında, sağlam arıqlamaqda da faydalı olan bu məhsul böyrəkləri və qaraciyəri zərərli maddələrdən təmizləyir, onun toxumları böyrək daşını əridərək bədənə rütubət verir. Mütəxəssislər qarpızı yeməkdən ya çox əvvəl, ya da çox sonra yeməyi məsləhət bilirlər. Qarpız və pendiri birlikdə yemək insana xüsusi ləzzət versə də, bu, çəkinin artmasına səbəb olur.

Xeyirli və yay aylarının əvəzsiz qidası olan qarpızın insanı zəhərləmə təhlükəsini də yaddan çıxarmayaq. Həkimlərin dediyinə görə, məhsul yetişdirilərkən azotdan daha çox istifadə etmək, dərildikdən sonra gün altında çox qalan, kəsildikdən sonra uzun müddət saxlanılan qarpız zəhərlənməyə səbəb ola bilər. Kəsərkən iç kənarları sarı, qabığında dəliklər, ortasında böyük boşluq olan çox böyük qarpızlar zəhərlənmə təhlükəsi yarada bilər. Elə buna görə də naxçıvanlılar məhz ekoloji təmiz, təbii yolla becərilən, yurdumuzun saf iqlimindən, bərəkətli torpağından qidalanan yerli məhsullara, eləcə də Nehrəm qarpızına üstünlük verirlər.

Qarpızdan məişətdə mürəbbə, kompot, turşu, şərbət, doşab, araq hazırlanır, tort, cem keks, şirə, salat, dondurma, kabab, qəlyan konservi, sandviç, çay, saqqız istehsalında, toxumundan isə maye sabunbişirmə sənayesində istifadə edilir.

Bu isti yay günlərində Nehrəm qarpızı yurdumuzun faydalı xüsusiyyətlərinə görə hər kəsin ağız ləzzəti ilə yediyi, süfrələrimizin bəzəyinə çevrilən nemətlərindəndir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 535